...Qardaş, bilirəm ki, sözü üzə deməyimlə bədxahlarıma fürsət verirəm, ancaq, neynim, mən bu cür doğulmuşam, başqa cür bacarmıram –

# Bu mənəm – Ziya Bünyadov



**Ziya Bünyadov bütövlükdə keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda da erməni millətçilərinin, daşnakların haqsız iddialarına qarşı prinsipial mübarizə aparırdı. Böyük alim konkret, zəngin tarixi faktlar gətirməklə, Azərbaycan xalqının ədalətli mövqeyi barədə beynəlxalq məclislərdə alovlu və əsaslı çıxışlar edirdi.**

**Ziya Bünyadovun əsərlərində, hətta erməni mənbələrinə əsaslanaraq apardığı tədqiqatlarda onların yeritdikləri çirkin siyasətin mahiyyəti aşkarlanırdı. Tarixi saxtalaşdırmaqda, özlərini başqa millətlərdən üstün tutmaqda ad çıxarmış erməni tarixçiləri Ziya Bünyadov səddini aşa bilmir, yarı yolda rüsvaycasına ifşa olunurdular.**

"...Ziyanın ömrü qilü-qalda, müharibələrdə keçdi. Başı min bir bəlalar çəkdi. Dediyindən dönməz, əqidəsindən əyilməz oldu. Ziya mərdi-mərdanəydi. Kimliyindən asılı olmayaraq həqiqəti üzə söylər, adamın gözünün içinə deyərdi. Qürurlu olduğu qədər də səmimiydi, sadəydi. Diz çökməkdənsə, ayaq üstə ölməyi şərəf sayardı..."

Akademik Teymur Bünyadov





Ziya sinif yoldaşları ilə (soldan aşağıda)

Beləcə, əvvəlcə arxivlərə, kitablara, sonra da Ziya müəllimin işıqlı simasını yaddaşlarda yaşadan insanlara üz tuturam... Budur, qarşımda qalaq-qalaq qəzetlər, kitablar.

Kimdir akademik, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov? Saralmış arxiv qovluqlarını araşdırıram.

*... Ziya Bünyadov 1923-cü il dekabrın 21-də Astara şəhərində dünyaya gəlib. Bibiheybət alim-şeyxləri nəslindən olan atası Musa Mövsüm oğlu Bünyadov inqilabdan xeyli əvvəl ataman Lyaxovun kazak diviziyasının alaylarının birində hərbi tərcüməçi olub. Atasının sayəsində hələ uşaqlıqdan ərəb dilini öyrənib, Quran oxuyub. Tarixi sənədlərə görə, Bünyadov soyadı onun 13-cü ulu babası şeyx Bünyadın adından götürülüb.*

*Kiçik yaşlarında ciddi tərbiyə alan Ziya ailədə altı uşaqdan ən böyüyü idi. Xidməti işi ilə əlaqədar atası Göyçaya göndərildiyinə görə orta məktəb illərini orada keçirmişdir. 1939-cu ildə təyyarəçilik məktəbinə daxil olmaq məqsədilə Bakıya gəlir. Lakin tibbi komissiyadan keçə bilmədiyindən yaşına iki il əlavə edib ovaxtki S.Orconikidze adına Bakı Piyadalar Məktəbində təhsilini davam etdirir. 1941-ci ilin mayında hərbi məktəbi leytenant rütbəsində əlaçı diplomu ilə bitirir.*

*Onu dərhal Bessarabiyaya (indiki Macarıstan) göndərirlər. II Dünya müharibəsi başlayanda həyatında ilk dəfə Dnestr çayı üzərindəki kiçik liman şəhəri Bəndər uğrunda döyüşə girir. İki dəfə yaralanır. Hərbi xəstəxanalardan çıxandan sonra Berlinədək vuruşaraq şərəfli döyüş yolu keçir.*

*Ziya Bünyadov Ukrayna və Moldova, Mozdok və Tuapse, Belorusiya və Polşa uğrunda savaşlarda mərdliklə vuruşur. Şimali Qafqazda gedən döyüşlərdə Volqa matroslarından təşkil olunmuş 120 nəfərlik rotaya komandirlik edir. Döyüşlərin birində haqlı olduğunu sübut edərkən, rütbəcə özündən yuxarı olan komandirə qarşı çıxdığına görə cərimə batalyonuna göndərilir. Visla–Oder əməliyyatı zamanı kapitan Bünyadovun komandanlığı altında 123-cü cərimə rotası Pilitsa çayı üzərindəki 80 metrlik minalanmış körpünü ələ keçirir. Əsas qüvvələr gələnə qədər körpünü bir neçə saat düşmənin aramsız hücumlarından qoruyub saxlayır. Bu zaman 670 nəfər döyüşçüsü olan rotada cəmi 47 nəfər sağ qalır.*

*1945-ci il fevralın 27-də Ziya Bünyadova Sovet İttifaqı Qəhrəmanı adı verilir.*

*Müharibə qələbə ilə başa çatdıqdan sonra Z.Bünyadov 1945-ci ilin may ayından 1946-cı ilin mayınadək Berlinin ən böyük rayonu olan Pankovda komendantın köməkçisi vəzifəsində çalışır. Berlinin təsərrüfat və mədəni həyatının bərpası və normallaşdırılması sahəsində fəal iştirakına görə o, "Artur Bekker" və "Vaffenbruderşaft" qızıl medalları ilə təltif olunur.*

*1954-cü ilin may ayında "İtaliya imperializmi Afrikada" mövzusunda namizədlik dissertasiyasını müdafiə edir və həmin ilin avqustunda vətənə qayıdaraq Azərbaycan EA-nın Tarix İnstitutunda elmi axtarışlarını davam etdirir.*

Bu deyilənlər quru, rəsmi sənədlərdən götürülüb. Bir qayda olaraq rəsmi məlumatlar həmişə statik, cansıxıcı olur. İlk baxışdan adama elə gəlir ki, sənin qəhrəmanın haqqında çox yazılıb, çox de-



Atası Musa Mövsüm oğlu Bünyadovla

yilib. Lakin pərdənin o üzündə qərar tutan dünyasına dərindən baş vuranda hələ xeyli məqamın qələmə, sözə ehtiyacı olduğunu görürsən. Odur ki Ziya müəllimlə 15 ildən çox bir sahədə çalışan tarix üzrə fəlsəfə doktoru, professor, AMEA Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini Cəbi Bəhramovla həmsöhbət olmağa ehtiyac duyuruq. Cəbi müəllim şahidi olduğu məqamlardan, qəhrəmanımızın tükənməz elmi fəaliyyətindən, Azərbaycan xalqının düşmənləriylə, tarixi saxtalaşdırmağa cəhd edən erməni psevdoalimləri ilə apardığı mücadilədən danışır:

–... Ziya müəllimi 1982-ci ildən tanıyırdım. O vaxtlar ulu öndər Heydər Əliyevin keçmiş SSRİ-nin ali təhsil ocaqlarına göndərdiyi tələbələrdən biri də mən idim. Təhsilimi başa vurduqdan sonra Milli Elmlər Akademiyasında işləməyə başladım. Çox böyük nüfuz sahibi olan Ziya müəllim həmin il "Əməkdar elm xadimi" fəxri adını almışdı. "Azərbaycan Atabəylər dövləti" əsərinə görə isə 1980-ci ildə Dövlət mükafatına layiq görülmüşdü. Biz Ziya müəllimi Yer kürəsini lərzəyə gətirən vulkana, odda bişən polada, azman palıd ağacına bənzədərdik. Ziya müəllim elə bir zirvədə qərar tutmuşdu ki, hər birimiz bu insanla nə zamansa görüşmək imkanımız olacağına inanmırdıq. Tale elə gətirdi ki, mən həftənin 5 günü onu görürdüm.

Həyat yoldaşı Tahirə xanım "Ziya mənim həyatımdır" kitabında yazır ki, o zaman müharibəyə səfərbər olunan azərbaycanlıların 90 faizi rus dilini bilmirdi. Bundan istifadə edən rus şovinistləri, o cümlədən onların əlaltısı olan ermənilər azərbaycanlıları təhqir edir, güllələyirdilər. Mircəfər Bağırov bu barədə Stalinə müraciət edəndən sonra milli diviziyalar yaradılır. Bir dəfə Ziya müəllim azərbaycanlı əsgərlərin təhqir olunduğuna etiraz edir, rus polkovnikinə atəş açaraq onu ağır yaralayır.

Təsəvvür edin, o vaxtlar bu nə demək idi!

Cəbhədən qayıdandan sonra Mircəfər Bağırovun təşəbbüsü ilə bir çox azərbaycanlı təhsil almaq üçün Moskvaya göndərilir. Ziya müəllim də 1946-cı ildə N.Nərimanov adına Moskva Şərqşünaslıq İnstitutuna daxil olur.

Azərbaycan xalqının qəddar düşmənlərindən biri olan Primakov da həmin institutda oxuyurdu. 20 Yanvar hadisələri zamanı Ziya müəllim Bakıya qoşun yeridən səbəbkarlardan biri olan Primakovu ittiham edərək onun iç üzünü açıb göstərdi. Ziya müəllimi tanıyanların söhbətlərini xatırlayıram. Bunlar onun xeyirxah insan olduğunu xarakterizə edən maraqlı hadisələrdir.

"Baharın 17 anı" filminin ssenari müəllifi Yulian Semyonov repressiya olunan atasına görə 1952-ci ildə institutdan qovulmalı imiş. Təsadüfən iclasda iştirak edən Ziya müəllim onun müdafiəsinə qalxaraq Stalinin məşhur kəlamını rəhbərliyə xatırladır: "Stalin yoldaş deyib ki, oğullar atalarının əməllərinə görə cavabdeh deyil". Ziya müəllimin çıxışından sonra hamı susur və Yulian institutda saxlanılır.

Başqa bir xatirə: 1954-cü ildə Lavrenti Beriya həbs olunandan sonra Moskvada qafqazlılara çox təhqiramiz münasibət bəsləyirlər. Şovinistlər küçələrə çıxıb "Rusiya ruslar üçündür!" – deyə bağırırlar. Belə olanda Ziya müəllim gedir Moskva şəhər partiya komitəsinə. Partiya biletini və Qızıl Ulduz medalını stolun üstünə qoyub deyir: "Mən belə bir ölkənin paytaxtında yaşamaq istəmirəm".

**Ziya müəllim L.İ.Brejnevlə eyni orduda vuruşmuşdu. 1978-ci ildə Brejnev özünə 4-cü dəfə Sovet İttifaqı Qəhrəmanı adı verdirəndə Ziya müəllim daha dözə bilmir. Brejnevə teleqram vurur ki, hansı xidmətinə görə sənə 4-cü Ulduz verilməlidir. O vaxtlar kim belə bir cəsarətə malik idi? Ziya Bünyadov cəsur, nağıl qəhrəmanlarına bənzəyən əfsanəvi şəxsiyyət idi...**

Ziya müəllim Azərbaycan üçün Allahın seçib göndərdiyi qeyri-adi, fövqəladə insan idi. O, Azərbaycanı mərd, dönməz, yenilməz bir oğul kimi sevirdi, düşmənlərimiz ondan çox qorxurdular. 60-cı illərdə qələmə aldığı "Azərbaycan VII–IX əsrlərdə" əsəri Azərbaycanın milli tarixşünaslığında əsl inqilab oldu. O bu möhtəşəm əsəri ilə ilk orta əsrlər tarixinin mühüm bir dövrünü elmi şəkildə ortaya qoymaqla bərabər, həm də Azərbaycan xalqının düşmənlərinə ağır zərbə endirdi. Vəfatından sonra akademikin 3 cildlik əsərlər toplusu Şərqşünaslıq İnstitutunun direktoru, akademiyanın müxbir üzvü Gövhər xanım Baxşəliyevanın rəhbərliyi ilə çox yüksək səviyyədə nəşr olundu.

**– Bildiyimə görə, Şərqşünaslıq İnstitutunda işləsə də, 50-ci illərdən başlayaraq 97-ci ilə kimi Azərbaycan tarixinin heç bir məsələsi Ziya müəllimin iştirakı olmadan müzakirə edilmədi...**

– Bilirsiniz, Şərqşünaslıq İnstitutu ilə Tarix İnstitutu arasında möhkəm əlaqələr mövcuddur. Şərq tarixi ilə bağlı məsələlər ortaya çıxanda biz həmişə Şərqşünaslıq İnstitutuna müraciət edirdik. Ziya müəllim həm də Tarix İnstitutunda orta əsrlər tarixi şöbəsinin müdiri idi. Şərqşünaslıq İnstitutuna keçməsinə baxmayaraq, Tarix İnstitutu Elmi Şurasının daimi üzvü idi. Nə az, nə çox, VII əsrdən başlayaraq XIII əsrin əvvəlinə qədər, təxminən 7 əsrlik ən çətin, ən mürəkkəb dövrü ərəb, fars və digər dillərdə olan mənbələrdə araşdıran və elmə təqdim edən bir alim vardısa, o da Ziya Bünyadov idi.

**– Əməkdaşları ilə münasibəti necəydi? Sizi hərdən çək-çevirə salmırdı ki...**

– Ziya müəllim zəhmli olduğu qədər də sadə insan, qayğıkeş rəhbər idi. Onun qəbuluna gələndə gözləməyə heç bir ehtiyac yox idi. Hər gün səhər saat 9-un yarısında yaşadığı evdən piyada gələrdi akademiyanın qabağına, oturardı skamyada. Bütün akademiklər, başqa institutların alimləri onun başına yığışardı. Azərbaycan elminin istedadlı nümayəndələrinə böyük hörmətlə, məhəbbətlə yanaşardı. Amma haqsızlığa dözməzdi. Kimliyindən asılı olmayaraq günah sahibi olan adamlar ondan qorxub çəkinərdi. Sovet İttifaqında, ya da başqa ölkələrdə Azərbaycanın əleyhinə bir yazı mətbuata verilirdisə, çox keçməzdi həmin adamın cavabını verərdi.

O vaxtlar SSRİ xarici işlər nazirinin müavini vəzifəsində işləyən Şeludyayev ermənilərin təhriki ilə Moskva mətbuatında Azərbaycan xalqını aşağılayan məqalə dərc etdirir. Həmin yazıda Azərbaycan xalqına qarşı iftiralar, bir çox tarixi yalanlar yer alırdı. Çox keçmir, Ziya müəllim Şeludyayevə məktub yazır. Məktubda Şeludyayevə yaraşan ifadələri onun ünvanına göndərir. Şeludyayev də Ziya müəllimdən şikayət yazaraq həmin məktubu aparıb qoyur M.Qorbaçovun qabağına.

Ziya müəllim yeganə adam idi ki, 1989-cu il martın 14-də Dağlıq Qarabağda yerli idarəetmə qurumu təşkil olunanda qəti şəkildə bu qurumun əleyhinə çıxıb dedi: "Bu, Qarabağın Azərbaycanın əlindən



Ziya Bünyadov iş zamanı



Ziya Bünyadov Azadlıq meydanında

alınmasıdır". 1988-ci ildən ta 1997-ci ilə qədərki dövrlər gözümün qabağındadır. O, Sumqayıt hadisələri ilə bağlı düşmən və qorxaq qüvvələrə qarşı əsl savaşa çıxdı. Onun Milli Elmlər Akademiyasının "Tarix, hüquq və fəlsəfə" seriyasında "Nə üçün Sumqayıt?" başlığı ilə məqaləsi dərc olundu. Bu məqalədə ilk dəfə olaraq ermənilərin təcavüzkar addımlarına, işğalçılıq niyyətlərinə elmi, hüquqi və siyasi qiyməti məhz Ziya müəllim verdi. Baş vermiş hadisələrin əsl mahiyyətini aşkara çıxarmağa çalışan Ziya müəllim məqalədə Moskvanın qızışdırıcı siyasətindən bəhs edərək SSRİ EA Afrika İnstitutunun direktor müavini A.M.Vasilyevin sözlərini misal gətirirdi: "Əgər biz jurnalın tirajını artırmaq istəsək, bunu eləmək çox asandır: azərbaycanlıların və ermənilərin etnogenezi haqqında iki məqalə çap etmək lazımdır. Digər "yağlı kökələr" də tapmaq lazımdır".

O zamanlar SSRİ Elmlər Akademiyasında ermənilərlə görüşdə Ziya müəllim tutarlı elmi arqumentlərlə hamını susdurmuşdu. O, SSRİ Elmlər Akademiyasının vitse-prezidenti Kudryavtsevlə görüşüb çox güclü faktlarla ermənilərin iddiasını rədd etmiş, onların saxta və təcavüzkar niyyətlərini birbaşa imperiyanın mərkəzində üzlərinə demişdi. Mərhum akademik İqrar Əliyev danışırdı ki, Ziya müəllim çılğın adam olduğu üçün nümayəndə heyəti çox narahatlıq keçirirdi. Əgər ermənilər bir söz desə, heç nəyə baxmayıb onların dərsini verəcəkdi. Amma Ziya müəllim çox böyük istedad, səbir, ağıl nümayiş etdirərək bütün məsələlərlə bağlı ermənilərin iddialarını rədd edib elə bir şəkildə ermənilərə cavab verdi ki, iclası aparan Kudryavtsev: "Ziya Musayeviç, kifayətdir, söz deməyə daha ehtiyac yoxdur", – dedi. Mən onun istedadına valeh oldum. Sözün əsl mənasında qəhrəman idi. Onun xarakterindəki çılğınlıq haqsızlığa və özəlliklə də erməni həyasızlığına layiqli cavab idi.

Ziya müəllim bizim Milli Elmlər Akademiyasının iclas zalında M.Qorbaçovun tapşırığı ilə Bakıya gələn akademik Saxarovun və onun əshabələrinin məkrli niyyətlərinə necə cavab verdisə, Saxarov özünü tamam itirdi və hansı qapıdan çıxacağını belə bilmədi.

... Mən onun şahidiyəm ki, 88–89-cu illərdə xalq hərəkatında olan ziyalılar akademiyanın həyətinə yığışıb "Ziya! Ziya!" deyə onu tələb edirdilər. Ziya müəllim 7-ci mərtəbədən düşüb onlarla görüşürdü. Hadisələrdə insanları istiqamətləndirirdi ki, millətə zərər gəlməsin, millətin övladları əbəs yerə həlak olmasın, düşünülməmiş addımlar atılmasın, yersiz hərəkətlər edilməsin. Ziya müəllim millətin ağır günlərində Azərbaycanın xilaskarı simasında yalnız Heydər Əliyevi görürdü və onun hakimiyyətə gəlməsi üçün müraciətə imza atan 91 nəfər tanınmış ziyalıdan biri idi. 1995-ci ildə Milli Məclisin deputatı, eyni zamanda beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvü oldu.

Akademik Ziya Bünyadov sözün əsl mənasında millətin düşünən beyni, müdrik ağsaqqalı, böyük hərflə yazılacaq Vətəndaşı və Qəhrəmanı idi...

**– Dediniz ki, Ziya müəllim tariximizin orta əsrlər dövrünün sonrakı mərhələləri ilə bağlı monumental tədqiqat əsərlərindən sonra müasir dövrün ictimai fikrini əhatə edən əsərlər də ortaya qoydu. Yəqin, siz akademikin İmadəddin Nəsimi, 26 Bakı komissarı və bolşevizmin törətdiyi terrorla əlaqədar olan əsərlərini nəzərdə tutursunuz...**

– Ziya müəllim müasir dövrün ictimai fikri ilə bağlı həm rus, həm də Azərbaycan dillərində bir neçə məqalə yazdı. "Qırmızı terror" kitabı sözün əsl mənasında sovet dövrünün həqiqətlərini açmaq üçün böyük və əhəmiyyəli açar idi. Onun hesablamalarına görə, 1936–37-ci illərdə 80 minə yaxın azərbaycanlı məhv edilmişdi. Millətin düşünən beyinlərinin repressiyası ilə bağlı ilk sözü Ziya müəllim dedi. 26 Bakı komissarı haqqında tarixi həqiqəti üzə çıxaran "Əfsanə və əfsanə yaradanlar" əsərində akademik bildirdi ki, onlar Rusiyanın mənafeyi naminə Bakı neftini əldə saxlamaq üçün Azərbaycan xalqına qarşı cinayət törədiblər. Bu, təsadüfi deyildi...



Abbasqulu ağa Bakıxanovun "Gülüstani - İrəm" adlı əsərinin tarixşünaslığımızda xüsusi yeri var. Ziya müəllim 1988-ci ildə onun şərhini yazıb çap etdirdi. Elmi şərhdə Abasqulu ağanın fikirlərinə də öz münasibətini bildirmişdi, əsərə elmi nöqteyi-nəzərdən yanaşmışdı. Bu, çox diqqəti cəlb edən məqamlardan biri idi. Sizə deyim ki, tədqiqat işi böyük rezonans doğurdu.

1960-cı illərin ikinci yarısında Azərbaycanın 150 il əvvəl Rusiyanın tərkibinə necə daxil olduğu haqqında elmi mübahisələr gedirdi. Bununla belə, 1964-cü ildə qərar qəbul edilmişdi ki, bir əsr yarım öncə Azərbaycan könüllü surətdə Rusiyanın tərkibinə daxil olub. Hətta bu hadisə bayram kimi qeyd edilirdi. Bu münasibətlə Azərbaycan Lenin ordeni ilə də təltif olunmuşdu. Həmin illərdə Ziya Bünyadov bir neçə dəfə açıq bildirmişdi ki, doğrudur, Azərbaycan Rusiyanın tərkibinə daxil olub, amma bu addım könüllü olaraq atılmayıb. Odur ki, tarixi həqiqəti demək lazımdır.

Ziya Bünyadovun araşdırmalarından biri də orta əsrlərin mütəfəkkir şairi İmadəddin Nəsiminin ölümü ilə bağlıdır. O, Nəsiminin edam olunduğu və dərisinin diri-diri soyulduğu barədə məlumatları təkzib edir. Ziya Bünyadov məqaləsində Nəsiminin necə öldürülməsi ilə bağlı qənaətlərin zəifliyi və bizə gəlib çatan materialların azlığına əsaslanır. Məlumatın mətni belədir:"Nəsiminin diri-diri dərisinin soyulması sonralar xalq tərəfindən yaranmış bir əfsanədir və geniş kütlənin ona olan hüsnrəğbətinin rəmzidir. Bu əfsanəyə isbat edilmiş bir elmi məlumat kimi və ya tarixi bir fakt kimi baxmaq yanlışdır".

Ziya Bünyadov 1966-cı ildən Ankaradakı Türk Tarix Qurumunun konqreslərinin daimi iştirakçısı olmuşdur. Türk xalqlarının tarixinin öyrənilməsində böyük xidmətlərinə görə həmin ildə Türk Tarix Qurumunun müxbir üzvü, 1988-ci ildə isə onun fəxri üzvü seçilmişdir. Onun təşəbbüsü ilə Türk Tarix Qurumunun 40-a qədər üzvü 90-cı illərdə Bakıya dəvət olundu. İlk dəfə qardaş Türkiyənin alimləri ilə Azərbaycan alimlərinin görüşü keçirildi.

Ziya müəllimin ən böyük, müqəddəs xidmətlərindən biri də onun Qurani-Kərimi dilimizə tərcümə etməsidir. Akademik islamın tarixini, bu dinin nə qədər təmiz, müqəddəs bir din olduğunu çox gözəl bilirdi. O, bir alim olaraq hər məsələyə elmi cəhətdən yanaşır, onun mahiyyətini insanlara çatdırmaq istəyirdi.

İstiqanlı, ünsiyyətcil, söhbətcil adam idi Ziya müəllim. Əhvalının duru vaxtında məzəli lətifələr danışardı. Güləndə ürəkdən gülərdi. Sevinci becid yerişindən bilinər, parlayan gözlərindən oxunardı. Arxasızlara arxa olmaqdan heç usanmazdı... Başına araqçına bənzər papaq qoyardı. Dəniz sahilində xəyala dalmağı çox sevərdi.



Bakıda Fəxri Xiyabanda qəbirüstü abidəsi

**– Son görüş həmişə yadda qalan olur, həmişə xatırlanır. Ziya müəllimlə son görüşünüzü xatırlayırsınız?**

– Mən onunla ölümündən bir neçə saat əvvəl görüşmüşdüm. Siyasi Sənədlər Arxivində müharibədən sonra Azərbaycanın neft sənayesində gedən proseslər haqqında çoxlu faktlar tapmışdım. Bu faktlar, əsasən, ermənilərin mərkəzi hökumətin nümayəndələri ilə bir yerdə Azərbaycanın neft sənayesini 50-ci illərdə ləğv etmək üçün göstərdikləri təşəbbüslə bağlı idi. Fevralın 21-də saat 12 radələrində həmişəki kimi 7-ci mərtəbəyə qalxmaq istəyəndə liftin qabağında onunla görüşdüm. Vacib bir sənədi aşkarladığımı Ziya müəllimə bildirdim. Dedi, indi Milli Məclisə gedirəm, birinci gün danışarıq. Demə, bu, son görüş imiş...

Səmina Hidayətqızı